

# Duyğu yarpaqları

## Söz qocalmasın

Mən elə bilirdim şair qocalmır,
Ömrün zirvəsinə o, heç ucalmır.
Sən demə arzular şerə döndükcə,
Sözün məhvərində o hey çöndükcə,
Şair də qocalır, söz də qocalır.
Onun da üzünü qırışlar alır,
Lakin qoy bu fikir bizi almasın,
Şair qocalsa da, söz qocalmasın.

**Təcəddin ŞAHDAĞLI.**
**AYB-nin üzvü.**

## İncimişəm

Adamlardan incidim,
Dedilər: «Sev, utanma»,
Gözəl, sənə «inanma».
Günəşdən incimişəm,
Eşqini verdi mənə,
Odunu, ay qız, sənə.
Analardan küsmüşəm,
Məni doğub səninçün,
Səni özgələr üçün.
Tanrıdan incimişəm,
Alnıma yazdı səni,
Alnına özgəsini.

**Mehrəli MEHRƏLİYEV.**

## Bir gözələ

Od tutub ürəyim, sönmür atəşim,
Mən sənə könlümü verəndən bəri.
Olmusan ulduzum, ayım, günəşim.
Qəlbimi yoluna sərəndən bəri.
Zil qara saçına məftun olmuşam,
Xumar gözlərinə vurğun olmuşam.
Özüm də bilmədən Məcnun olmuşam,
Eşqin ürəyimi dərəndən bəri.
Əsirgəmə, gülüm, cəfanı məndən,
Çünki səadətdir nə gəlsə, səndən!
Sitayiş edirəm şanələrə mən,
Zülfünü darayıb hörəndən bəri.

**Tofiq VƏNDAMLI.**

## Adsız duyğular

Ey qazlar, qazlar! Hara uçub gedirsiniz? O uzaq ellərə, yad ölkələrə sizi kim göndərir, nə göndərir? Xəbəriniz varmı, soyuqlar meşələrimizi, bağlarımızı külə döndərir?

* * *

Qara gecələr. Hərdən işıqlar yanır. Yanır, tez də sönür. Göylərdə çaxan şimşəklər kimi. Divardan asılıb tik-takla can verən zamanın üzünü görmək üçün.

* * *

Bu dünyanın heç insafı yox imiş. Sevgili həsrətlilərindən sevgi həsrətliləri daha çox imiş.

* * *

Düzünü de, heç xəbərin olurmu, xəyalının gecələr gizlin-gizlin gəlib yatağıma girməyindən, mənimlə qucaqlaşıb yatmağından? Xəbərin olurmu?

* * *

Bir də sabah görəcəyəm səni. Gecədən sübhəcən yol gedim gərək. Dünyanın bu başından o başınacan.

**Füzuli YAVƏR.**

## Müəllimlik tacı

Müəllimlik tacıma,
Bərabər tac tapılmaz.
Müəllim qazancına,
Bir tay qazanc tapılmaz.
Üstündür, bilək bunu,
O, ən böyük rütbədən.
Odur şaha, dühaya,
Əlifbanı öyrədən.
Dəyişmərəm mən onu,
Heç bir vara, dövlətə.
Odur işıq, nur saçan,
Bütün bəşəriyyətə.

**Əmirxan BURZUYEV.**

## Axtarıram

Yağış yağır, əsir külək,
Solur çəmən, solur çiçək.
Arzular çox, ömür gödək.
Bulaqları axtarıram.
Yaylaqları axtarıram.
Daha heç nə çatmır dada,
"Xatirələr düşür yada".
Nələr, nələr verdin bada...
Mən baharı axtarıram.
Xan çinarı axtarıram.
Günüm keçdi Qaraçayda,
Şahid oldu günəş, ay da.
Şeir yazdım qışda, yayda.
İndi kimi axtarıram?
İlk eşqimi axtarıram.
Gülərüzlü o qız hanı?
Şirinsözlü o qız hanı?
Mavi gözlü o qız hanı?
Mən o qızı axtarıram.
Vəfasızı axtarıram.
Həqiqəti necə danım?
Uralanır bağ-bostanım.
Qəbələdir öz ünvanım.
Çal-çağırı axtarıram.
Tanışları axtarıram.
Ötüb aylar, ötüb illər,
Ağarıbdı qara tellər.
Qocalıram, əsir əllər.
Dincliyimi axtarıram!
Gəncliyimi axtarıram!

**Şakir XƏYAL.**





## Yaddan arxa seçərmi, heç?

Pula səcdə edən kəslər,
Pula səcdə düşərmü heç?
Ay qibləsi, haqqı tərslər,
Odsuz yemək bişərmi heç?
Öz həddini kim ki, aşar,
Düz yolunu bir gün çaşar,
Tuluq olsun, yaxud da şar,
Üfürməsən şişərmi heç?
Demə Cəlil haqdan doyub,
Dərd qəlbimi elə oyub,
Ağlı olan eli qoyub,
Yaddan arxa seçərmi, heç?

**Cəlil KOMRADLI.**



## Gəzdiyim yolların qalıbmı görəm

Sürülər payızda arana enər,
Əliklər oynaşar, quzu mələşər.
Sinəsində qar gizlədən dərələr,
Yamacda güllərin qalıbmı görəm?
Bu yerlərin vurğunuyam əzəldən,
Göz çəkilməz çiçək dərən gözəldən,
Yaylaqların uzaq düşüb nəzərdən,
O köçən ellərin qalıbmı görəm?
Zirvəsində qar görünən o dağlar,
Qaynayıb kükrəyən sərin bulaqlar,
Yamacda boylanan körpə marallar,
Çaylarda sellərin qalıbmı görəm?
Yurd salmışdı bu yerlərdə atalar,
Sağında, solunda meyvəli bağlar,
Sizdən darıxmışam güllü yamaclar,
Çəmənli düzlərin qalıbmı görəm?
Xəyalımda bir cənnətdir o yerlər,
Köçən köçüb viran qalıb o yerlər,
Moruqlu dərələr, sıldırım diklər,
Gəzdiyim yolların qalıbmı görəm?

**Səməd SƏMƏDOV.**



## Bahərım

Süfrəsi noğul, aşlı,
Şux ilməli, naxışlı,
Naz-qəmzəli baxışlı,
Novruzgüllü baharım.
Xanımlardan gözəli,
Təbiətin əzəli,
Toy-büsatlı, məzəli,
Novruzgüllü baharım.
Elimə yaraşıqdır,
Könlü sözlü aşıqdır,
Həm sülhdür, barışıqdır,
Novruzgüllü baharım.
Naxışın da gözəldir,
Baxışın da gözəldir,
Yağışın da gözəldir,
Novruzgüllü baharım.

**Emin BARATOĞLU,**
**AYB-nin üzvü.**



## Qalma

Ürəyimdə azıb qalma,
Həyatımda bezib qalma,
Gedəsi vaxt gəlibdisə,
Göz yaşımı sezib qalma!
Arxanca atılan sudur,
Neyləyim, olanım budur,
Sənə olan son payıma,
Dodağını büzüb qalma!
Bu sevgi sir ikimizə,
Mat qalmışam özümüzə,
Sənli-mənli günümüzü,
Gecə-gündüz çözüb qalma!
Bu eşq dəyib-dəriləcək,
Quruyubdur, səriləcək,
Xatirələr qatarını,
Xəyalında düzüb qalma!

**Nargilə QAFAROVA.**

## Heydər bağı

Qəbələnin ağuşunda,
Çəmənzardı Heydər Bağı,
Şirin-şirin nəql eləyir,
Ömrümüzdən keçən çağı.
Qocalara xatirələr,
Cavanlara görüş yeri
Hər bir kəsin taleyində,
Bir məkandır Heydər Bağı
Postamentdə duran heykəl,
Nəsillərə nümunədir.
O, uludur, O öndərdir,
Müqəddəsdir Heydər Bağı.
Ötər aylar, keçər illər.
Fəsil bilməz axşam, səhər
İnsanlara fərəh verər,
Əbədidir Heydər Bağı.
Heydər Bağı! Doğma, əziz,
Səliqəli həm də təmiz.
Alıb onu öz qoynuna,
Ana yurdum Qəbələmiz.

**Sədiyar SƏFƏRƏLİYEV.**

## Səni gözləræm

Gözlərimdə nisgil, qəlbimdə kədər,
Hər zaman ümidlə səni gözlərəm.
Səni səndən ayrı yaşamaq çətin,
Sənsiz yalqızlıqda səni istərəm.
Hər zaman deyərdin - «insanın dostu
Bir ana, varsa da bacısıdır bil».
Tək dostum, həmdəmim sən idin, ana,
O, sənsiz günlərim sanki olur il.
Fələyin qəribə oyunları var,
Birini ağladar, birin güldürər.
Nə olar anamı qaytaraydılar,
Hamı şadlıq edər, gülər, sevinər.

**Əfsanə XƏLİSQIZI.**

## İnsanlıq qalası

Alnımızda bir yazı var,
Nə yazılıb, olasıdır.
Ömrün yazı, payızı var,
Açan güllər solasıdır.
Tanrımız var, yalan deyil,
Dünyası var, solan deyil,
Sənə, mənə qalan deyil,
Hey boşalıb, dolasıdır.
Kim nə görür, nə eşidir,
Bu hər kəsin öz işidir.
Şeytanların vərdişidir,
Araya şər salasıdır.
Məhəbbətdir ömrün tacı,
Kimə şirin, kimə acı.
Gen düşsə də qardaş, bacı,
Bir yuvanın balasıdır.
Hərənin var bir zamanı,
Əbədilik olan hanı?
Kim veribsə sənə canı,
Bir gün geri alasıdır.
Fəryaz, uyma bu dünyaya,
Ömür axır gedir çaya.
Namus, qeyrət, abır, həya,
İnsanlığın qalasıdır.

**Fəryaz HƏMİDOV.**

## Dəstəyi vaxtında götür, ay ana

Dəstəyi vaxtında götür, ay ana,
Yoxsa qəlbi şübhə, gözü qan alar.
"Görəsən anama nə olub?" - deyə
Dünyanın dərdləri mənə yan alar.
Dəstəyi vaxtında götür, cavab ver,
Qaraltma dünyamı, xəbər tut, oyan.
Beşiyim başında dayandığın tək,
Xəttin o başında müntəzir dayan.
Demə bu əmrdi, hədədi, ana,
Duy məni köksümü ötürməyimdən.
Ölüb-dirilirəm bil ki, bu başda,
Dəstəyi bir az gec götürməyindən.
Dəstəyi vaxtında götür, ay ana...
Götür, qoy səsini dinləyim yenə.
Çiçək yükünü də qıymaram, ancaq,
Hazır ol dəstəkdə müntəzirliyə...

**Rəşad MAHMUDOĞLU.**

## Mənim Nicim

Səndən küsüb necə köçüm?
Ayrı düşsəm yanar içim,
Fındıqlığın əlçim-əlçim,
Hər daşını öpüb keçim,
Mənim anam, doğma Nicim.
Dağlar başı daim qardı,
Yamacları yaz-bahardı,
Cənnətməkan bir diyardı,
Fəsilləri necə seçim?
Mənim anam, doğma Nicim.
Nur ələnir göy üzündən,
Keçib moruqlu düzündən,
Bulaqların buz gözündən,
Ovuclayıb içim, içim,
Mənim anam, doğma Nicim.
Oğuz yurdum, doğma elim,
Səni bəslər qəlbim, dilim,
Harda olsam səslə, gəlim,
Taleyimə düşən incim,
Mənim anam, doğma Nicim!

**Aşot UDİNOĞLU.**

## Sevincim

Şirin-şirin baxışın,
Bahar kimi naxışın,
Yaz çiçəkli yağışın,
Mənim gülüm, Sevincim.
Gözlərindir piyalə,
Dalma ay qız xəyalə,
Yanaqların al lalə,
Mənim gülüm, Sevincim.
Saçlarındır sarışın,
Qələmə bənzər qaşın,
Hələ körpədir yaşın,
Mənim gülüm, Sevincim.
Nə şirindir avazın,
Xoşdur mənə bu nazın,
Çiçəyisən sən yazın,
Mənim gülüm, Sevincim.

**Şəhla XƏLİLQIZI.**